**UOT 94(470)"19…"**

# QARA DƏNİZ İQTISADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCANIN RUSİYA VƏ UKRAYNA İLƏ ƏMƏKDAŞLIQ İMKANLARI

**A.Ş.ŞAHMURADOV**
***Azərbaycan Dillər Universiteti***
***agil1965@mail.ru***

*Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Qara dəniz hövzəsi, Balkan yarımadası və Cənubi Qafqazın 12 dövlətini birləşdirən hökumətlərarası təşkilatıdır. Təşkilat 1992-ci ildə imzalanmış Qara Dəniz İqtisadi Əməkdaşlığı haqqında müqavilə əsasında 1999-cu ildə təsis olunmuşdur. QDİƏT iqtisadi əməkdaşlıq, regionda nəqliyyat və ticarət əlaqələrinin genişləndirilməsi istiqamətində fəaliyyət göstərir. Təşkilata üzvlük Azərbaycanın Rusiya və Ukrayna ilə əlaqələrinin genişlənməsi üçün də şərait yaradır. Azərbaycanın QDİƏT daxilində bu ölkələrlə əməkdaşlığı əsasən energetika, nəqliyyat və ticarət sahəsini əhatə edir.*

**Açar sözlər:** Qara Dəniz İqtisadi Əməkdaşlığı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı**,** Azərbaycan, Rusiya, Ukrayna

Qara dəniz hövzəsi qədim zamanlardan müxtəlif xalqlar arasında iqtisadi və ticarət əlaqələrinin inkişafında ciddi rol oynamışdır. Müasir dövrdə nəqliyyat, rabitə, energetika, sənaye, kənd təsərrüfatı, ekologiya, turizm və s. sahələrdə dövlətlər və xalqlar arasındakı əlaqələrin genişləndirilməsinə olan tələbat Qara dəniz regionunun əhəmiyyətini xeyli artırmışdır. Balkanlar, Ukrayna, Aralıq və Xəzər dənizləri hövzələrini birləşdirməklə Qara dəniz bu gün çox mühüm geosiyasi və geoiqtisadi faktor kimi gündəmə gəlmişdir, bu da öz növbəsində burada regional əməkdaşlığın genişləndirilməsinə yönəlmiş yeni çağrışların ortaya çıxması ilə nəticələnmişdir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaranması bu çağrışlara verilən cavablardan biridir.

Qara dəniz hövzəsində iqtisadi əməkdaşlığı inkişaf etdirmək təşəbbüsü ilk dəfə 1990-cı ildə Türkiyənin mərhum prezidenti Turqut Ozal tərəfindən irəli sürülmüşdü. O,SSRİ, Türkiyə, Rumıniya və Bolqarıstanı əhatə edəcək "Qara dəniz çiçəklənmə və əməkdaşlıq zonası" yaratmaq təşəbbüsü ilə çıxış etmişdi. Sonrakı dövrdə SSRİ-nin süqutu və bunun nəticəsi olaraq baş vermiş geosiyasi dəyişikliklər bu təşəbbüsü heç də kölgədə qoymadı, əksinə, 1992-ci ildə Rusiya, Türkiyə və Ukrayna regional əməkdaşlıq ideyasını yenidən gündəmə

gətirmiş, Qara dəniz ilə bu və ya digər dərəcədə əlaqəli olan digər ölkələr də sonradan onlara qoşulmuşdular.

Qara Dəniz İqtisadi Əməkdaşlığı haqqında Bəyannamə (1) 1992-ci il iyunun 25-də İastambulda Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Yunanıstan, Rumıniya, Rusiya, Türkiyə və Ukrayna dövlət və hökumət başçıları tərəfindən imzalanmışdı. Eyni təşkilatda təmsil olunmaları Azərbaycan ilə Ukrayna arasında çoxtərəfli əlaqələri inkişaf etdirmək üçün əlavə imkanlar yaradır.

Avropada gedən dərin və sürətli dəyişikliklər, qitə xalqlarının sülh və təhlükəsizlik erasını başlamaqda qərarlı olmaları, insan hüquq və azadlıqlarına hörmətə əsaslanan demokratiya, iqtisadi azadlıq, sosial ədalət, bərabər təhlükəsizlik kimi ümumi dəyərlərə əsaslanan inkişaf, iştirakçı dövlətlərin coğrafi yaxınlığı, onların həyata keçirdikləri islahatlar və struktur dəyişiklikləri ilə şərtləndirilən qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi, ekoloji problemlər, iştirakçı dövlətlərin ümumavropa iqtisadi məkanına və dünya iqtisadiyyatına daha yüksək səviyyədə inteqrasiya etmək niyyətləri, iqtisadi, texnoloji və sosial sahədə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsində, sahibkarlıq fəaliyyətinin həvəsləndirilməsində maraqlı olmaları Bəyannaməni imzalamış dövlətlər, o cümlədən Azərbaycan ilə Ukrayna arasında əməkdaşlığı zəruri edən əsas şərtlərdəndir.

İstanbul Bəyannaməsini imzalamış dövlətlərin əməkdaşlıq dairəsi ümumi maraq doğuran aşağıdakı sahələri əhatə edir:

- uyğun infrastruktur da daxil olmaqla nəqliyyat və rabitə;
- informasiya;
- statistik məlumatlar da daxil olmaqla iqtisadi və kommersiya məlumatlarının mübadiləsi;
- əmtəələrin standartlaşdırılması və sertifikatlaşdırılması;
- energetika;
- mineral xammalın hasilatı və emalı;
- turizm;
- kənd təsərrüfatı və aqrar-sənaye kompleksi;
- veterinar və sanitar mühafizə;
- səhiyyə və əczaçılıq sənayesi;
- elm və texnika.

Qara Dəniz İqtisadi Əməkdaşlığı haqqında Bəyannamədə ölkələrarası əməkdaşlığın həyata keçirilmə yolları da müəyyənləşdirilmişdir. Hər şeydən əvvəl, ikitərəfli danışıqlar nəticəsində bir ölkənin sahibkarlarının digər ölkənin ərazisinə maneəsiz daxil olması, qalması və sərbəst hərəkəti yüngülləşdirilməli, müəssisələr və şirkətlər arasında birbaşa əlaqələrin yaradılması həvəsləndirilməli, kiçik və orta müəssisələrə yardım göstərilməlidir.

Əmtəə və xidmətlərin qarşılıqlı mübadiləsinin genişləndirilməsi, bu yolda mövcud olan istənilən maneənin aradan qaldırılması tərəflərin üçüncü ölkə qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsinə mane olmamalıdır.

İnvestisiya qoyuluşu, kapitalların hərəkəti və sənaye sahəsində müxtəlif əməkdaşlıq növlərinin həyata keçirilməsi üçün zəruri şərait yaradılmalı və bu zaman ikiqat vergitutmadan imtina etmək haqqında razılıq əldə olunmalıdır.

Bəyannaməyə qoşulmuş ölkələrin ərazisində keçirilən beynəlxalq hərraclar haqqında informasiya mübadiləsi aparmaq, azad iqtisadi zonalarda əməkdaşlığı genişləndirmək də regional əlaqələri inkişaf etdirmək yollarından biri kimi müəyyənləşdirilmişdi.

Qeyd olunanlarla yanaşı, iştirakçı-dövlətlər ətraf aləmin qorunması, xüsusilə Qara dənizin ekoloji vəziyyətinin yaxşılaşdırılması, onun bioresurs-larının mühafizə, istifadə və inkişaf etdirilməsi üçün birgə layihələr həyata keçirməli, hökumət və qeyri-hökumət səviyyəsində kredit və maliyyə razılaş-malarının bağlanmasına yardım etməli, qarşılıqlı iqtisadi və ticarət əlaqələrini genişləndirmək, Qara dəniz zonasında ümumi maraq doğuran layihələri həyata keçirmək üçün beynəlxalq təşkilatların və başqa dövlətlərin imkanlarından istifadə etməlidirlər.

1992-ci il iyunun 25-də İstanbulda digər bir sənəd – əməkdaşlığın prioritet istiqamətlərini və əsas mexanizmini müəyyənləşdirən Bosfor Bəyanatı da qəbul olunmuşdu (2). Bu sənədi imzalamış dövlət və hökumət başçıları Qara dəniz iqtisadi əməkdaşlıq ideyasının tarixi zərurətdən, xalqlar arasında sülhü və konstruktiv əlaqələri inkişaf etdirmək maraqlarından irəli gəldiyini xüsusi olaraq vurğulamış, azad bazar iqtisadiyyatının inkişafı, etibarlı və səmərəli mexanizmlərin yaradılması yolu ilə iqtisadi əməkdaşlığı genişləndirməyin mümkünlüyünü önə çəkmişdilər.

Bosfor Bəyanatında Qara dəniz regionunun ciddi münaqişələrlə üzləşdiyi və yeni münaqişələrin meydana gəlmə təhlükəsinin saxlanıldığı, mövcud münaqişələrin ATƏT-in prinsiplərinə uyğun həll edilməsinin, təcavüzə, zora, terrora və qanunsuzluğa qarşı mübarizənin, sülh və ədalətin bərpa olunmasına yardım göstərməyin vacibliyi diqqət mərkəzində saxlanılmışdı.

1992-ci ildə iqtisadi təşəbbüs kimi meydana gələn Qara Dəniz İqtisadi Əməkdaşlığı 1998-ci ilədək hökumətlərarası mexanizm formasında mövcud olmuşdu. Bu illər ərzində əməkdaşlığın strukturlaşması, təşkilati əsaslarının yaradılması istiqamətində konkret addımlar atılmışdı.

1992-ci ildə Azərbaycan, Rusiya və Ukrayna ilə yanaşı Albaniya, Bol-qarıstan, Gürcüstan, Ermənistan, Moldova, Rumıniya, Serbiya, Türkiyə, Yunanıstan nümayəndələri tərəfindən Qara Dəniz İqtisadi Əməkdaşlığı İşgüzar Şurasının yaradılması (3) Qara Dəniz İqtisadi Əməkdaşlığının təşəbbüsdən təşkilata doğru inkişafında atılmış mühüm addımlardan biri oldu. Beynəlxalq, qeyri-hökumət və qeyri-kommersiya təşkilatı olan İşgüzar Şuranın əsas məqsədi Qara dəniz regionunun dünya iqtisadiyyatına daha çox inteqrasiya olunmasına yardım göstərməkdən ibarətdir. İşgüzar Şuranın əsas orqanı milli təşkilatların nümayəndələrinin daxil olduqları Direktorlar Şurasıdır.

Qara dəniz hövzəsi ölkələri arasında əməkdaşlığın təşkilati əsaslarının yaradılması istiqamətində atılmış növbəti addım Qara Dəniz İqtisadi Əmək-

daşlığı Parlament Assambleyasının yaradılması olmuşdu. Bu haqda Bəyannamə Azərbaycan, Rusiya və Ukrayna, həmçinin Albaniya, Gürcüstan, Ermənistan, Moldova, Rumıniya, Türkiyə parlament sədrlərinin 1993-cü il fevralın 25-26-da İstanbulda keçirilmiş görüşləri zamanı qəbul edilmişdi (4).

Parlament Assambleyasının yaradılmasında əsas məqsəd əməkdaşlığın hüquqi bazasını formalaşdırmaq, milli parlamentlər vasitəsilə xalqları həyata keçirilən fəaliyyət haqqında məlumatlandırmaq, deputatlar və parlamentlər arasında dostluq əlaqələrini inkişaf etdirməklə xalqlar arasında etimad və mehriban qonşuluq mühitinin yaradılmasına, iştirakçı-dövlətlərin üzv olduqları beynəlxalq təşkilatlarla əlaqələriinin inkişaf etdirilməsinə yardım etməkdən ibarətdir.

İştirakçı-dövlətlərin dövlət və hökumət başçılarının 1996-cı il oktyabrın 25-də qəbul etdikləri Moskva Bəyannaməsində əməkdaşlıq məsələləri ilə yanaşı, Qara Dəniz İqtisadi Əməkdaşlığının institutsional və hüquqi bazasının möhkəmləndirilməsi məsələsi də diqqətdə saxlanılmışdı. Bəyannamədə qeyd olunur ki, "Dövlət və hökumət başçıları razılaşırlar ki, hal-hazırda əsas prioritet vəzifələrdən biri Qara Dəniz İqtisadi Əməkdaşlığının institutları və hüquqi bazasının möhkəmləndirilməsindən ibarətdir. Bu, Qara Dəniz İqtisadi Əməkdaşlığının səmərəliliyinin artırılmasına və hökumətlərarası, parlamentlərarası, işgüzar, maliyyə, akademik və ictimai əlaqələr də daxil olmaqla, bütün ölçülərdə onun qarşılıqlı əlaqələrinin daha yaxşı təmin olunmasına yardım edəcəkdir. Bu məqsədlə onlar Qara Dəniz İqtisadi Əməkdaşlığının regional iqtisadi təşkilata çevrilməsi prosesini davam etdirməyi məqsədəuyğun hesab edirlər..." (5).

Hökumətlərarası mexanizm kimi mövcud olmuş Qara Dəniz İqtisadi Əməkdaşlığının beynəlxalq hüquq subyekti olan təşkilata çevrilməsi prosesi 1998-ci il iyunun 5-də baş tutan Yalta sammitində başa çatdı. Yalta Bəyannaməsinə imza atan dövlət və hökumət başçıları bildirirdilər: "Biz hamımız inanırıq ki, çoxtərəfli iqtisadi əməkdaşlığımızda əldə edilmiş əhəmiyyətli tərəqqi regionda gərginliyin azaldılmasına, xalqlarımızın rifahı naminə sülhün, stabilliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım edir və Qara Dəniz İqtisadi Əməkdaşlığının beynəlxalq hüquq subyektliliyini möhkəmlətmək zamanı gəlmişdir. Bu məqsədlə biz Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsini imzaladıq, bunun nəticəsində mövcud hökumətlərarası mexanizm tam formatlı regional iqtisadi təşkilata çevrilir" (6)

Azərbaycan, Albaniya, Bolqarıstan, Gürcüstan, Ermənistan, Moldova, Rumıniya, Rusiya, Türkiyə, Yunanıstan və Ukrayna rəhbərləri tərəfindən imzalanmış Nizamnamədə (7) QDİƏT-in aşağıdakı prinsip və məqsədləri müəyyənləşdirilmişdi:

- dostluq və mehriban qonşuluq ruhunda fəaliyyət göstərmək və üzv-dövlətlər arasında qarşılıqlı hörmət və etimadı, dialoq və əməkdaşlığı möhkəmlətmək;
- beynəlxalq hüququn prinsip və normaları əsasında ikitərəfli və çoxtərəfli əməkdaşlığı bundan sonra da inkişaf və diversifikasiya etdirmək;

- sahibkarlıq fəaliyyəti mühitini yaxşılaşdırmaq məqsədilə fəaliyyət göstərmək və iqtisadi əməkdaşlıq prosesində bilavasitə iştirak edən müəssisə və şirkətlərin fərdi və kollektiv təşəbbüslərini həvəsləndirmək;

- üzv-dövlətlərin beynəlxalq öhdəlikləri, o cümlədən onların beynəlxalq təşkilatlarda və ya inteqrasiya və ya digər xarakterli təsisatlarda üzvlüyündən irəli gələn və üçüncü tərəflə münasibətlərinə mane olmayan öhdəlikləri ilə ziddiyyət təşkil etməyən iqtisadi əməkdaşlığı inkişaf etdirmək;

- iştirak edən üzv-dövlətlərin konkret iqtisadi şəraitlərini və maraqlarını nəzərə almaq;

- digər maraqlı dövlətlərin, beynəlxalq iqtisadi və maliyyə təsisatlarının, həmçinin müəssisə və şirkətlərin Qara Dəniz İqtisadi Əməkdaşlığı çərçivəsindəki iqtisadi əməkdaşlıq prosesində iştirakını bundan sonra da həvəsləndirmək.

QDİƏT-ə üzv-dövlətlər ticarət və iqtisadi inkişaf, bank işi və maliyyə, rabitə, energetika, nəqliyyat, kənd təsərrüfatı və aqrar-sənaye, səhiyyə və farmakologiya, ətraf mühitin mühafizəsi, turizm, elm və texnika, statistik məlumatlar və iqtisadi informasiyaların mübadiləsi, gömrük və digər sərhəd orqanları arasında əməkdaşlıq, insanlar arasında əlaqə, mütəşəkkil cinayətkarlıq, narkotiklərin, silahların və radioaktiv materialların qeyri-qanuni dövriyyəsi, hər növ terror aktları və qeyri-qanuni miqrasiya ilə mübarizə kimi sahələrdə əməkdaşlıq etməyi qərara almışlar.

Mövcud olduğu illər ərzində QDİƏT -in fəaliyyəti nəqliyyat və energetika, bank işi və maliyyə, demokratiya və qanun aliliyi, mütəşəkkil cinayətkarlıq və terrorizmlə mübarizə, ətraf mühitin qorunması, mədəniyyət və təhsil, turizm və s. sahələri əhatə etmişdir. Əməkdaşlıq sahələrinin geniş spektrinə baxmayaraq, iqtisadi əlaqələrin genişləndirilməsi təşkilatın fəaliyyətinin prioritet istiqamətinə çevrilmişdir.

QDİƏT-ə üzv-dövlətlər arasında inteqrasiya prosseslərinin inkişafında nəqliyyat sahəsində əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə əlaqələri canlandırmaq məqsədilə Qara Dəniz İqtisadi Əməkdaşlığı Parlament Assambleyası 1996-cı il iyunun 12-də “Qara Dəniz İqtisadi Əməkdaşlığına üzv-dövlətlər arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında” tövsiyyə qəbul etmişdi (8). Nəqliyyat infrastrukturunun yenidən qurulmasını ümumilikdə regionda ticarətin, sosial-iqtisadi tərəqqinin və siyasi stabilliyin əsası kimi qəbul edən Parlament Assambleyası milli parlament və hökumətləri nəqliyyat, xüsusilə gömrük və sərhəd xidmətləri sahəsində qanunvericiliyi bir-birinə uyğunlaşdırmağa, birbaşa xarici sərmayələri cəlb etmək üçün əlverişli hüquqi və inzibati mühit yaratmağa, regiondakı bütün nəqliyyat sistemlərinin təhlükəsiz fəaliyyət göstərməsini, milli nəqliyyat infrastrukturunun və şəbəkələrinin Transavropa nəqliyyat sistemiinə çıxışını təmin etməyə, sərhədlərin qeyri-leqal keçilməsinə, silah, radioaktiv maddələr və s.-nin qeyri-qanuni daşınmasına qarşı ikitərəfli və çoxtərəfli müqavilələr əsasında mübarizə

aparmağa və regionda nəqliyyatın inkişafına və təhlükəsiz fəaliyyətinə yardım edəcək digər tədbirləri görməyə çağırmışdı.

QDİƏT ölkələrini əhatə edəcək Dairəvi nəqliyyat dəhlizinin yaradılması təşkilatın əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Qeyd etmək lazımdır ki, başqa təşkilatlar tərəfindən irəli sürülmüş Qara Dəniz Ümumavropa Nəqliyyat Zonası (PETRA), Cənubi Avropa Əməkdaşlıq Təşəbbüsü (SECİ) və TRASEKA kimi regional təşəbbüslərin həyata keçirilməsi öz növbəsində QDİƏT daxilində nəqliyyat sistemlərinin inkişafına gətirib çıxarır. Bu sahədə QDİƏT regionun Azərbaycan, Rusiya və Ukrayna nümayəndələrinin də iştirak etdikləri qeyri-hökumət nəqliyyat təşkilatları - Gəmiqayıran və Gəmi Təmirçilərinin Qara Dəniz Regional Assosiasiyası (BRASS), Gəmi Sahiblərinin Qara Dəniz Assosiasiyası (BİNSA), Qara və Azov Dənizləri Limanları Assosiasiyası (BASPA), Qara Dəniz Əməkdaşlığı Regionu Avtomobil Nəqliyyatı Assosiasiyaları İttifaqı (BSEC-URTA) - ilə də əməkdaşlıq edir. Regionda nəqliyyatın inkişaf etdirilməsində Azərbaycan, Gürcüstan və Türkiyə mühüm strateji əhəmiyyətə malikdir, çünki bu ölkələri əhatə edən nəqliyyat sistemləri təkcə QDİƏT-ə üzv-dövlətlər arasında deyil, ümumilikdə Avropa ilə Mərkəzi Asiya arasında əlaqələrin genişlənməsini təmin edir. Eyni zamanda, Azərbaycandan keçən "Şimal-Cənub" nəqliyyat dəhlizi Şimali Avropa ölkələrinin və Rusiyanın Hind okeanına ən qısa yolla çıxışına imkan verir. Son nəticədə bütün bunlar həm ölkələrarası, həm də regionlararası iqtisadi-ticarət əlaqələrinin genişlənməsinə səbəb olur. Məsələn, təkcə 2000-ci il ərzində Qara dəniz regionu vasitəsilə Avropadan Asiyaya və əks istiqamətdə 7,6 milyon konteyner daşınmışdı (9).

Üzv-dövlətlər arasında ticarət əlaqələrinin hüquqi bazanı yaratmaq məqsədilə, Ümumdünya Ticarət Təşkilatının (GATT) prinsipləri əsasında QDİƏT daxilində müəyyən addımlar atılmışdır. Hələ 1994-cü il iyunun 21-də Qara Dəniz İqtisadi Əməkdaşlığı Parlament Assambleyası gömrük qaydalarının təkmilləşdirilməsi haqqında Tövsiyyə qəbul etmişdi (10). Sənəddə üzv-dövlətlər arasında mal dövriyyəsini artırmaq, etibarlı və standartlaşdırılmış gömrük mexanizmlərini yaratmaq məqsədilə milli parlamentlərə gömrük qanunvericiliyini qarşılıqlı faydalı surətdə dəyişdirmək, proteksionizmin zəiflədilməsi, gömrük tənzimlənməsində tədricən GATT prinsiplərinə və dünyada qəbul olunmuş digər prinsiplərə keçmək üçün zəruri tədbirləri görmək tövsiyyə olunmuşdu.

Enerji sektorunun dinamik inkişafı QDİƏT ölkələrinin iqtisadi tərəqqisi üçün ciddi əhəmiyyət kəsb edir. Eyni zamanda, Xəzər dənizi hövzəsində neft və təbii qaz hasilatının artması Qara dəniz regionunu dünya enerji bazarının mühüm mərkəzlərindən birinə çevirmişdir. Enerji sahəsində əməkdaşlığı daha da inkişaf etdirmək məqsədilə QDİƏT Parlament Assambleyası 2003-cü il iyunun 11-də "Energetika sahəsində əməkdaşlıq haqqında" tövsiyyə qəbul etmişdi (11). Dünya və Avropanın enerjiyə olan tələbatını nəzərə alan Parlament Assambleyası milli parlament və hökumətlərə enerji sahəsindəki

fəaliyyətin hüquqi bazasını yaratmağı, enerji bazarını liberallaşdırmağı, enerji sektoruna sərmayələrin cəlb edilməsini stimullaşdırmağı, inzibati və lisenziya prosedurlarını sadələşdirməyi, enerji qiymətlərində onun real qiymətini əks etdirməyi, enerji mənbələrinin istismarı ilə əlaqədar meydana gələn ekoloji problemləri həll etməyi və s. tövsiyyə etmişdir. Bundan başqa, təbii qazdan istifadəni genişləndirmək, elektrik enerjisi istehsalında istifadə olunan daş kömür və nefti təbii qaz ilə əvəz etmək, bərpa olunan enerji mənbələrini inkişaf etdirmək, atom enerjisindən istifadə ilə bağlı riskləri azaltmaq və başqa vəzifələr də müəyyənləşdirilmişdi.

QDİƏT-ə daxil olan ölkələrdən yalnız ikisi - Azərbaycan və Rusiya - enerji təhlükəsizliyini öz hesablarına ödəmək qabiliyyətindədir. Yerdə qalan ölkələr isə bu və ya digər dərəcədə xarici enerji mənbələrindən aslıdır. Hal-hazırda regionda neft və qaz kəmərlərinin geniş şəbəkəsi fəaliyyət göstərir. Bu şəbəkəyə Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk, Atırau-Novorossiysk, Odessa-Brodı-Qdansk, Konstansa-Triyest, Burqas-Aleksandro-polis, Burqas-Vlore, Frakiya-Saross neft, Bakı-Tbilisi-Ərzrum, Bakı-Novo Filya, Təbriz-Ərzrum, "Mavi axın" qaz kəmərləri daxildir.

1997-ci ildə istifadəyə verilmiş Bakı-Novorossiysk neft kəməri Azərbaycan neftini Rusiya ərazisindən keçməklə Qara dənizdəki Novorossiysk limanına çatdırmaq üçün nəzərdə tutulmuşdu. İllik buraxılış gücü 18 milyon ton, ümumi uzunluğu 1535 kilometr olan bu kəmərin 1300 kilometri Rusiya, 235 kilometri isə Azərbaycan ərazisindən keçir (12, 111).

1996-ci il yanvarın 18-də Moskvada "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən tranziti haqqında müqavilə" imzalandı. İmzalanan müqaviləyə əsasən Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə ixrac həcmi ilbəil artaraq 2002-ci ildə 5 milyon tona çatmalı idi (13, 305-308). Qeyd etmək lazımdır ki, istismar olunduğu illər ərzində Bakı-Novorossiysk neft kəmərinin ixrac imkanlarını artırmaq üçün ciddi yenidənqurma işləri aparılmamış, bu marşrut ilə neft ixracı heç vaxt 5 milyon tona çatmamışdır. Məsələn, 2010-cu ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Novorossiysk limanına cəmi 2,2 milyon ton (14), yəni müqavilədə nəzərdə tutlduğunun yarısından da az neft ixrac etmişdi. Bu bir daha Bakı-Novorossiysk marşrutunun regionda istifadə olunan digər marşrutlarla müqayisədə az əhəmiyyət daşıdığını göstərir.

Azərbaycanın karbohidrogen ehtiyatlarının Qərb istiqamətində nəqli marşrutlarını genişləndirmək məqsədilə müzakirə olunan məsələlərdən biri Bakı-Supsa-Odessa-Brodı marşrutundan istifadə olunması ilə əlaqədardır. Odessa-Brodı neft kəmərinin tikintisi 2002-ci ildə başa çatsa da, 2004-cü illədək o, istifadəsiz qalmışdı. Ukraynanın "Ukrtransnafta" və Polşanın PERN şirkətləri kəməri Polşanın Plotsk şəhərinə qədər uzatmağı təklif etmiş və 2004-cü ildə bu məqsədlə "Sarmatiya" şirkətini yaratmışdılar. Sonradan Azərbaycan, Gürcüstan və Litva şirkətləri də bu şirkətə qoşulmuşdu. "Ukrtransnafta", PERN, Azərbaycan Dövlət Neft Şirkəti və Gürcüstan Dövlət Neft və Qaz

Korporasiyasının hər biri "Sarmatiya" şirkətinin səhmlərinin 24,75%-nə, Litvanın Klaipedos Nafta terminalı isə 1%-nə sahib olmuşdu. Buna baxmayaraq, Odessa-Brodı kəmərini Plotska qədər uzatmaq layihəsi bu günə qədər reallaşmamışdır. Əvəzində, Odessa-Brodı kəməri 2004-cü ildən başlayaraq Rusiya tərəfindən revers rejimində istifadə olunmuş, yəni kəmərlə əks istiqamətdə, Brodıdan Odessa limanına Rusiya nefti göndərilmişdi (15).

Kəmərin revers rejimində istifadəsi 2010-cu ilin əvvəllərinədək, onun avers rejimində istismar olunmasına, yəni Odessadan Brodı istiqamətində Azərbaycan neftinin göndərilməsinə qədər davam etmişdi. Qeyd olunan ilin ilk altı ayı ərzində Ukraynaya 500 milyon dollar dəyərində təxminən 1,5 mln. ton Azərbaycan nefti daxil olmuşdu, bu da Ukraynanın tələbatının 25 %-nə bərabərdir (16).

QDİƏT çərçivəsində reallaşdırılan tədbirlərin və layihələrin maliyyələşdirilməsində müxtəlif səviyyəli beynəlxalq və regional maliyyə qurumları iştirak etsə də, burada əsas rol Qara Dəniz Ticarət və İnkişaf Bankına (QDTİB) məxsusdur.

QDTİB-in yaradılması təşəbbüsü 1992-ci ildə meydana gəlmiş və müzakirə obyektinə çevrilmiş və 1994-cü il iyunun 30-da Tbilisidə Bankın yaradılması haqqında razılaşma imzalanmışdı. QDTİB 1997-ci ildə yaradılsa da, maliyyə əməliyyatlarının həyata keçirilməsinə 1999-cu ilin iyununda başlamışdı. Azərbaycan, Albaniya, Bolqarıstan, Gürcüstan, Ermənistan, Moldova, Rumıniya, Rusiya, Türkiyə, Yunanıstan və Ukrayna tərəfindən təsis edilmiş QDTİB öz nizamnaməsi, kapitalı, idarə orqanları olan müstəqil beynəlxalq maliyyə təşkilatıdır.

Bankın ilkin kapitalı 1,5 milyard dollar təşkil edirdi. Burada Rusiya 16,5%, Ukrayna 13,5%, Azərbaycan isə 2% paya malikdir (17).

QDTİB iri layihələrin maliyyələşdirilməsindən tutmuş, təminatların verilməsinə və müəssisələrin kapitallarında iştiraka qədər müxtəlif əməliyyatlarda iştirak edir.

Geniş iqtisadi potensiala malik olmasına baxmayaraq, QDİƏT intensiv əməkdaşlıq, kooperasiya mərkəzinə çevrilə bilməmişdir. Burada üzv-dövlətlərin iqtisadi inkişaf səviyyələrinin bir-birindən kəskin şəkildə fərqlənməsi müəyyən disproporsiyanın yaranmasına səbəb olmuşdur. Belə ki, QDİƏT məkanında istehsal olunan ümumi daxili məhsulun 80%-dən çoxu Rusiya, Türkiyə və Yunanıstanın payına düşürsə, cəmi 1%-i Azərbaycan, Albaniya, Ermənistan və Gürcüstanın payına düşür (478, 151). Bu qeyri-bərabərlik təşkilatdaxili inteqrasiyaya mane olan amillərdəndir.

QDİƏT açıq tipli, proteksionizmdən uzaq bir təşkilat olmasına baxmayaraq, üzv-dövlətlər arasındakı ticarət əlaqələri ideal səviyyədən çox uzaqdır. Məsələn, QDİƏT ölkələri ilə ticarətdə ən yüksək göstərici Rusiyaya məxsusdur. Bu ölkənin üzv-dövlətlərlə ümumi əmtəə dövriyyəsinin həcmi onun xarici ticarətinin 15%-nə bərabərdir, bunun da üçdə iki hissəsi Ukrayna

ilə ticarətin payına düşür. Bu göstərici Ukrayna üçün 11-12%-ə (bunun 85%-dən çoxu Rusiya ilə ticarətin payına düşür), bərabərdir (18, 89).

Hal-hazırda 12 dövləti birləşdirən QDİƏT-in əsas məqsədlərindən biri həm region ölkələrini, həm də Avropa ilə Asiyanı bir-biri ilə birləşdirəcək nəqliyyat sisteminin yaradılmasından ibarətdir. Uzunluğu 7 min kilometrdən çox olan Qara dəniz dairəvi avtomobil yolunun tikintisi planlaşdırılır. Bütün bu layihələrin reallaşdırılması iqtisadiyyatın və ticarətin inkişafına yatrdım edəcək, region ölkələrinin, o cümlədən Azərbaycanın Rusiya və Ukrrayna ilə iqtisadi əlaqələrini daha da genişləndirəcək.

## ƏDƏBİYYAT


1. PABSEC. Selected BSEC documents. Summit Declaration of the Black Sea Economic Cooperation, Istanbul, 25 June 1992 // http://www.pabsec.org/Documents.asp?hl=en&id=6
2. PABSEC. Selected BSEC documents. Bosphorus Statement, Istanbul, 25 June 1992 // http://www.pabsec.org/Documents.asp?hl=en&id=6
3. BSEC Organization, page "Business Council" // http://www.rncbsec.org/eng/bsec/ business_council.html
4. Russian National Committee for Black Sea Economic Cooperation. BSEC Organization", page "Business Council" // http://www.rncbsec.org/eng/bsec/business_ council.html
5. PABSEC. Selected BSEC documents. Declaration of the Heads of State or Government of the Participating States of the Black Sea Economic Cooperation, Moscow, 25 October 1996 // http://www.pabsec.org/Documents.asp?hl=en&id=6
6. PABSEC. Selected BSEC documents. BSEC Summit Declaration, Yalta, 5 June 1998 // http://www.pabsec.org/Documents.asp?hl=en&id=6
7. PABSEC. Selected BSEC documents. BSEC Charter, 5 June 1998 // http://www.pabsec.org/Documents.asp?hl=en&id=6
8. Cooperation in Transportation among the BSEC Participating States (report, rec. 13/1996). PABSEC. Reports and recommendations. Economic, Commercial, Technological and Environmental Affairs // http://www.pabsec.org/ Documents.asp?hl=en&id=3
9. Development of the transport infrastructure in the Black Sea Region (report, rec.84/2005) PABSEC. Reports and recommendations. Economic, Commercial, Technological and Environmental Affairs // http://www.pabsec.org/ Documents.asp?hl=en&id=3
10. Improvement of Customs Regulations among the BSEC Member Countries (report, rec. 1/1994). PABSEC. Reports and recommendations. Economic, Commercial, Technological and Environmental Affairs // http://www.pabsec.org/ Documents.asp?hl=en&id=3
11. Cooperation in the Field of Energy (report, rec. 68/2003). PABSEC. Reports and recommendations. Economic, Commercial, Technological and Environmental Affairs // http://www.pabsec.org/Documents.asp?hl=en&id=3
12. Жильцов С.С., Зонн И.С., Ушаков А.М. Геополитика Каспийского региона. М.: Международные отношения, 2003, 280 с.
13. Azərbaycan-Rusiya. Россия-Азербайджан. 1992-2002, sənədlər toplusu, сборник документов. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Rusiya Federasiyasının Bakıdakı səfirliyi, Bakı: «Cümə», QTSJ, 2002, 590 s.
14. SOCAR yanvarda Bakı-Novorossiysk boru kəməri ilə neft ixracını 30% artırıb // http://www.interfax.az/az/index.php?option=com_content&task=view&id= 63620 &Itemid=37
15. Водо В., Ребров Д. Казахскую нефть развернут на Польшу // Газ. "Коммерсантъ", 2007, 1 октября.

16. Чечелашвили В. “Благодаря ЗСТ ГУАМ Украина компенсировала 11% дефицита своего внешнеторгового баланса” // http://guam-organization.org/ node /1041
17. The Black Sea Trade and Development Bank (report, rec. 33/1999). PABSEC. Reports and recommendations. Economic, Commercial, Technological and Environmental Affairs // http://www.pabsec.org/Documents.asp?hl=en&id=3
18. Бурак П. И. Инфраструктура межрегионального экономического сотрудничества и императивы инновационного развития // П.И. Бурак, В.Г. Ростанец, А.В. Топилин; Международная ассамблея городов. М.: Экономика, 2009, 366 с.

## ВОЗМОЖНОСТИ СОТРУДНИЧЕСТВА АЗЕРБАЙДЖАНА С РОССИЕЙ И УКРАИНОЙ В РАМКАХ ОРГАНИЗАЦИИ ЧЕРНОМОРСКОГО ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА

**А.Ш. ШАХМУРАДОВ**

**РЕЗЮМЕ**

Организация Черноморского Экономического Сотрудничества (ОЧЭС) является межправительственной организацией, объединяющая 12 государств Причерноморья, Балканского полуострова и Южного Кавказа. Организация была создана в 1999 году на основе Договора о Черноморском Экономическом Сотрудничестве, подписанного в 1992 году. Экономическое сотрудничество, расширение транспортных и торговых отношений входят в сферу функционирования ОЧЭС. Членство в организации создает условия для расширения отношений Азербайджана с Россией и Украиной. Сотрудничество Азербайджана с этими государствами в рамках ОЧЭС, охватывает такие сектора, как энергетика, торговля и транспорт.

**Ключевые слова:** Черноморское Экономическое Сотрудничество, Организация Черноморского Экономического Сотрудничества, Азербайджан, Россия, Украина

## POSSIBILITY OF COOPERATION BETWEEN AZERBAIJAN AND RUSSIA AND UKRAINE IN THE FRAMEWORK OF THE BLACK SEA ECONOMIC COOPERATION

**A.Sh.SHAHMURADOV**

**SUMMARY**

The Organization of the Black Sea Economic Cooperation (BSEC) is an intergovernmental organization which unites 12 states of the Black Sea, Balkans and South Caucasus. The organization was founded in 1999 on the basis of the Treaty on the Black Sea Economic Cooperation, signed in 1992. The scope of the BSEC involves, the economic cooperation and the expansion of transportation and trade relations. The membership in the organization creates the conditions for the expansion of Azerbaijan's relations with Russia and Ukraine. The cooperation between Azerbaijan and these countries in the framework of the BSEC covers such sectors as energy, trade and transport.

**Key words:** Black Sea Economic Cooperation, Organization of the Black Sea Economic Cooperation, Azerbaijan, Russia, Ukraine